Crowe Horwath.
Baltic Caspian Audit
Member of Crowe Horwath International

Azerbaijan avenue 23\21
Baku, AZ1009, Azerbaijan
Tel: +994 12 492 02 29
TIN: 1301712131
E-mail: office@bcaudit.az

Crowe Horwath.
Baltic Caspian Audit
Member of Crowe Horwath International

Azərbaycan prospekti 23\21.
Bakı, AZ1009, Azərbaycan
Tel: +994 12 492 02 29
VÖEN: 1301712131
E-mail: office@bcaudit.az

**«Baltik Caspian Audit» məhdud məsuliyyətli cəmiyyəti**

**«Texnika Kapital Menecment » məhdud məsuliyyətli cəmiyyətinə**

Mən, AT/075 qeydiyyat saylı 072783 №li lisenziya ilə auditor fəaliyyəti həyata keçirən «Baltik Caspian Audit» məhdud məsuliyyətli cəmiyyətinin direktoru Əsədullayev Samir Sədulla oğlunun şəxsində və "Texnika Kapital Menecment" məhdud məsuliyyətli cəmiyyətinin direktoru İbrahimov Cəfər Qəməddin oğlunun şəxsində 09.03.2015-ci il tarixində bağlanmış müqaviləyə əsasən həmin cəmiyyətin 01.01.2014-cü il tarixdən 31.12.2014-cü il tarixədək olan dövr üzrə vergi bəyannamələrinin düzgünlüyünün auditi aparılmışdır.

Cəmiyyətin rəhbərliyi vergi bəyannamələrinin Vergi Məcəlləsinə və digər qanunvericilik aktlarına uyğun olaraq hazırlanması və düzgün təqdim edilməsi üzrə məsuliyyət daşıyır. Həmin məsuliyyətə vergi bəyannamələrinin hazırlanması və düzgün təqdim edilməsi üçün müvafiq daxili nəzarətin təşkili, tətbiqi və saxlanması; müvafiq uçot siyasətinin seçilməsi və tətbiqi; və müəyyən şəraitə münasib olan uçot ehtimallarının müəyyən edilməsi daxildir.

Bizim vəzifəmiz apardığımız audit əsasında həmin maliyyə hesabatları və vergi bəyannamələri üzrə rəy ifadə etməkdir. Biz auditi vergi məcəlləsinin tələblərinə uyğun aparmışıq. Bu standartlar bizdən etik normalara riayət etməyi və vergi bəyannamələrində əhəmiyyətli səhvlərə yol verilmədiyinə kifayət qədər əmin olacaq tərzdə həyata keçirməyi tələb edir.

Auditə vergi bəyannamələrində göstərilən məbləğlər və açıqlamalar barədə audit sübutunun əldə edilməsi üçün prosedurların həyata keçirilməsi daxildir. Seçilmiş prosedurlar, eləcə də fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq vergi bəyannamələrinin əhəmiyyətli səhvlər riskinin qiymətləndirilməsi bizim mülahizələrimiz əsasında aparılmışdır. Auditə, həmçinin, tətbiq edilmiş uçot prinsiplərinin və cəmiyyətin rəhbərliyi tərəfindən edilmiş mühüm ehtimalların qiymətləndirilməsi, o cümlədən ümumilikdə vergi bəyannamələrinin təqdim edilməsi üzrə qiymətləndirilmənin aparılması daxildir.

Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları auditor rəyinin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir.

Bizim fikrimizcə, 31.12.2014-cü il tarixinə Cəmiyyətin vergi bəyannamələri Azərbaycan Respublikası Vergi Məcəlləsinə və digər qanunvericilik aktlarına uyğun olaraq düzgün və ədalətli təsəvvür yaradır.

Auditorun hesabatı 30.03.2015-ci il tarixdə eyni qüvvəyə malik iki nüsxədə tərtib edilmişdir. Bunlardan biri sifarişçi-təsərrüfat subyektində, ikincisi isə "Baltik Caspian Audit" məhdud məsuliyyətli cəmiyyətində saxlanılır.

**"Baltik Caspian Audit" məhdud məsuliyyətli cəmiyyətinin**

**Direktoru** **S. Əsədullayev**

"Baltik Kaspian AUDIT" MMC
AUDIT
"Baltic Caspian AUDIT" LLC